# Ermənistan faşizm ideyalarını təbliğ edən dövlətdir



## Prezident İlham Əliyev: “MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur”

***Yaşadığımız iyirmi birinci yüzillikdə faşizm ideyalarının təbliğ olunması və faşistlərin qəhrəman kimi təqdimi qəbuledilməzdir. Müasir dünyada bütün arxiv sənədlərinin aşkar şəkildə olması, həqiqətlərin dünyaya çatdırılması, ağı qaradan seçməyə imkan yaradıb. Amma belə bir zamanda, nədənsə, Ermənistan faşist Qaregin Njdeyə, rəsmi olaraq, heykəl ucaldıb və onu milli qəhrəman statusuna yüksəldib. Bu, faktdır ki, Ermənistan dünyada nadir ölkələrdəndir ki, belə bir addımı atıb. Tarixi mənbələrdən bəllidir ki, Njdenin faşistlərlə əlaqəsi olub və onun sovet ordusuna qarşı döyüşməsi tarixi sənədlərdə əksini tapıb. Onu da vurğulamaq lazımdır ki, Qaregin Njde 1918-1921-ci illərdə Zəngəzur mahalında yerli azərbaycanlılara qarşı vəhşi cinayətlərin törədilməsinə də başçılıq edib.***

Belə bir faşist cinayətkara Ermənistan hökuməti tərəfindən heykəlin qoyulması, əlbəttə ki, Ermənistanın əvvəlki hökumətinin kimliyini ortaya qoymuş olur. Prezident İlham Əliyev Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edərkən, təkzibedilməz faktlara əsaslanaraq, Ermənistanda faşistlərin qəhrəmanlaşdırıldığını bildirib və Yerevan hakimiyyətini bu cür yarıtmaz siyasətdən əl çəkməyə, MDB məkanında əməkdaşlığı və sülhü təhdid edən faşizm ideologiyasından imtina etməyə çağırıb. Bildirib ki, əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub: “MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib”. Cənab Prezident 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyinin “Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim etdiyini iştirakçıların diqqətinə çatdırıb: “Həmin məruzədə deyilir: “Ermənistanın keçmiş hakim Respublika Partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”. Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir”.

### FAŞİST QAREGİN TER-ARUTYUNYANA HEYKƏL UCALDILMASI FAŞİSTLƏRİN QƏHRƏMANLAŞDIRILMASINA XİDMƏT EDİR

Dünya erməniliyinin türklərə və azərbaycanlılara qarşı qatı millətçi davranışlarının təməlində Q.Njdenin düşüncələri yer alır. Bu faşist ideoloqu bütün həyatı boyu türklərə düşmən mövqedə olmuşdur. O, öncə savaş meydanında türklərə divan tutmağa çalışmışdı. Qəddarlıqda Andranikdən geri qalmayan bu şəxsin tökdüyü qanın, qətlə yetirdiyi günahsız insanların sayı-hesabı yoxdur. 1930-cu illərin ortalarında Adolf Hitler Almaniyada iqtidara gəldikdən sonra Daşnaksütyun Partiyasının liderlərindən olan Qaragen Njde ABŞ-ın Boston ştatında irqçi təşkilat yaradıb. Mənbələrə istinadən, deyə bilərik ki, Njde ermənilərin dünyanın əksər millətlərindən üstün olduğunu bəyan edirmiş. Hətta onun ideologiyasına görə, ermənilər ali irqin nümayəndələri kimi digər xalqları məhv etmə səlahiyyətinə malikdir. Q.Njdenin bu cür sərsəm fikirlərindən sonra o, ABŞ-dan qovulub. Daha sonra qatı erməni millətçisi Almaniyada o zaman faşizmin mərkəzi olan Münxen şəhərində məskunlaşıb. DTK-nın İkinci Dünya müharibəsi ilə bağlı arxiv sənədlərindən aydın görmək olur ki, erməni daşnakları həmin dövrlərdə xüsusi qəddarlıqla kütləvi qırğınlar törədiblər. Alman faşistləri ilə birlikdə əsir düşərgələrindəki insanlara işgəncələr verilməsində və sovet ordusuna qarşı döyüş əməliyyatlarında iştirak ediblər. “Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən, Ermənistanda belə hallar baş verir” deyə dövlət başçısı çıxışında bildirib.






Azərbaycan Prezidenti çıxışında ermənilərin faşist və işğalçı siyasətini faktlarla dilə gətirib. Prezident İlham Əliyev Ermənistanda Qaregin Njde ləqəbi ilə tanınan faşist Qaregin Ter-Arutyunyana heykəl ucaldılmasının faşistlərin qəhrəmanlaşdırılmasına xidmət etdiyini vurğulayaraq, bunun yolverilməz olduğunu bildirib.

Cənab Prezident Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik “1941-1945-ci illərin Böyük Vətən müharibəsi” ensiklopediyasının “Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əkskəşfiyyat” adlı VI cildində dərc edilmiş “Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti” adlı məqalədən sitat da gətirib: “Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində, o, Bolqarıstan ərazisinə milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib”.

Faktlar əsasında çıxışını davam etdirən dövlət başçısı Njdenin 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində hündürlüyü 6 metrə yaxın olan heykəlin qoyulduğunu bildirib: “Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur”.

### “CƏBHƏ ÜÇÜN ÇOX ZƏRURİ OLAN NEFTİN 70 FAİZDƏN ÇOXU, BENZİNİN 80 FAİZİ, MOTOR YAĞLARININ 90 FAİZİ AZƏRBAYCANIN PAYINA DÜŞÜRDÜ”

Azərbaycan Prezidenti çıxışında ölkəmizin faşizm üzərində qələbə qazanmasında müstəsna xidmətləri barədə danışaraq, toplantı iştirakçılarının diqqətinə çatdırıb ki, faşizm üzərində qələbəyə Azərbaycan layiqli töhfə verib. Azərbaycan Prezidenti çıxışında Böyük Vətən müharibəsində qələbənin əldə olunmasında xalqımızın müstəsna rolunu faktlar əsasında bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Qeyd edib ki, Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbə uğrunda canlarından keçib. Diqqətə çatdırıb ki, müharibə illərində göstərdikləri igidliyə görə, Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Onu da bildirib ki, cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Prezident İlham Əliyevin vurğuladığı kimi, əgər bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan eliminin nümayəndələri ümumi qələbəmizə sanballı töhfə veriblər. Məsələn, böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan “Molotov kokteyli” kimi məşhurlaşmış yandırıcı maye ixtira etmişdi: “Bu barədə çox adam bilmir, lakin bu, həqiqətdir. Bakının zavodlarında gecə-gündüz istehsal edilən məşhur “Katyuşa” raketləri və digər silahlar düşməni dəhşətə salmışdı. Müharibədə həlak olanların xatirəsini Azərbaycanda ehtiramla yad edir, müharibə veteranlarına böyük qayğı göstəririk. Oyuncaq, satqın, xalqa zidd, biabırçı Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu 1992-1993-cü illərdə 9 May bayramı ləğv edilmişdi, müharibə veteranları isə alçaldılmağa və təhqirlərə məruz qalırdılar. Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra, onun ilk qərarlarından biri 9 May - Qələbə Gününün bərpa edilməsi oldu. O vaxtdan təqvimdə qırmızı rənglə qeyd olunan bu gün qeyri-iş günüdür və milli bayram kimi qeyd edilir”.

Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Prezident İlham Əliyev çıxışında, bir daha Ermənistan dövlətinin işğalçı və terrorçu mahiyyətini dəlillər əsasında göstərimiş oldu. Faşizm ideyalarını təbliğ edən bir dövlət kimi hər zaman çıxış etmiş bu gün də belədir.

*Nəzakət ƏLƏDDİNQIZI*